**Əli çiçəkli yurdda qalan güllə-baranlı şənbə**

Bu şənbə necə gəldi,
Qan içə-içə gəldi,
Nahaq ölüm, qəfil qəm
Gizlənib gecə gəldi.

Bu şənbə, qanlı şənbə,
Dili fəğanlı şənbə.
Əli çiçəkli yurdda
Gülləboranlı şənbə.

Əzizim, üzü qanlı,
Ayağı, dizi qanlı.
Ölən biz, qırılan biz,
Tutdular bizi qanlı.

Bu ordu, qanlı ordu,
Işğalçı, qanlı ordu.
Xalqına qan udduran,
Xalqıyla qanlı oldu.

Deyirəm : bəsdi, qatil!...
Səsimi kəsdi qatil.
Cəsədimin üstündə
Tırtılla gəzdi qatil.

Atəşə tutur məni,
Naqqatək udur məni.
Öz qurduğu oyunda
Özü də udur məni.

Qış ələmli, qış soyuq,
Düşmən amansız, soyuq,
Divarlar, Pəncərələr...
Gülllədən oyuq-oyuq.

Getdi o nər oğullar,
Getdi zəfər oğullar.
Şəhidim-gül balalar,
Şəhidim-ər oğullar.

Bu dərd, məni oyandı,
Oyduqca kin oyandı.
Igid qurbanı verən
Azərbaycan oyandı.

Əzizim həzin-həzin,
Yel əsdi həzin-həzin.

Cin atına atlandı
Cavanşir, Gəray, Həzi...

Əzizim, mehdi yenə,
Bu acı mehdi yenə.
Qumbarası əlində
hay verdi Mehdi yenə

Əziziyəm, nəsimi,
Əsmədi yel nəsimi.
Qürbətdə acı-acı
Ağı dedi Nəsimi.

Əziziyəm, nizamı,
Pozuldu el nizamı.
Füzuli fəryad etdi,
haray çəkdi Nizami.

Gün batar yana-yana,
Ağı de, yan, ay ana!
Kəpəz ilə Savalan
Yas tutar yana-yana.

Sıxar gözünü Təbriz,
Ələr közünü Təbriz.
Kədər yaşıyla deyər
Qəmli sözünü Təbriz.

Vətənim ikiləndi,
Başıma kül ələndi.
Mənliyim zaman-zaman
Arxadan güllələndi.

Dəryatək qabaran mən,
Haqsıza qabaran mən.
Torpağıma dəyməyin!
Deyə, hay qoparan mən.

Əzizim, çəkişmədi,
Bu, ayrı çəkişmədi.
Bu, nə zümrə qovğası,
Nə milli çəkişmədi.

Gəmiyəm dəryada mən,
Üsyanam hər yada mən.
Dərd əlindən dönmüşəm
Dözülməz fəryada mən.

Əzizim, dövranıdı,
Qara qan dövranıdı.
haqq hayına qeyb olub,
Nahaqqın dövranıdı.

Qanlını qan tutacaq,
Qəm yeyib dərd udacaq.
Haqqın ər savaşında
Haqq işi haqq udacaq.

Hər səhərin günü var,
Gecəsi var, günü var.
Bu yaralı könlümün
Bir intiqam günü var.

Əziziyəm, danışdım,
Qəm yükündən danışdım.
Yurduma kəc baxanla
Ülfətimdən daşındım.

Əziziyəm, birbəbir,
Dur sıraya birbəbir.
Hər qızın bir aslandı,
Hər oğlun bir bəbir.

Əziziyəm, Qarabağ,
Yaylağında qara bax!
Bağlamaz əl-qolunu
Qara niyyət, qara  bağ.

Qarabağ gözüm mənim,
Ocağım, közüm mənim,
Fitnəsi özgələrin,
Qurbanı özüm mənim.

Vətən, son qəmin olsun,
Sevincli dəmin olsun.
Qarabağ öz elimdir –
Ellərin əmin olsun.

Əzizim, dəyən olmaz,
Bu dağdan dəyən olmaz.
Qarabağ öz gözümdür,
Ona hec dəyən olmaz.

Əzizim, qalxanam mən,
Dərd üstə qalxanam mən.

Bütövlük savaşında
Qılıncam, qalxanam mən.

Əziziyəm, cəng elər,
Qayalardan cəng elər.
Yurduma kəc baxanı
Zirvələrim çəngələr.

Əziziyəm, ərkimi,
Siz də bilin ərkimi.
Yurduma sipərəm mən.
Şəhid kimi, ər kimi.

Əziziyəm, qınından,
Qılınc çıxar qınından,
Azadlıq göyərəcək
Şəhidlərin qanından.

Əziziyəm, gələcək,
Nicat dəmi gələcək.
Qanımla yol suvardım –
Gəlsin azad gələcək.

Bu meydan həyat dedi,
Sən yaşa azad dedi.
Bu meydan məhkumluğun
Daşını tez at dedi.

Bu meydan birlik dedi,
Ellərlə birlik dedi.
Vətən də Vətən olar,
Olarsa birlik – dedi!

Ey insanlar, dikəlin,
Dağüstü bağa gəlin!
Yar məzarı başında
Saç yolur cavan gəlin.

Haqqım çırağım mənim,
Kinim yarağım mənim.
Şəhid məzarı türbəm,
Enməz bayrağım mənim.

Qaldı əbədi, qaldı,
El məhəbbəti qaldı.
Vətəndə vətən boyda
Birlik mə`bədi qaldı!

Nuri B. Əli çiçəkli yurdda qalan güllə-baranlı şənbə // Savalan. - 1992. – 17 yanvar.